**Respublika.** - 2024.- 7 noyabr. - № 246. - S. 11.

# Beynəlxalq əməkdaşlıqda yeni dövrün təməli

**Nurcan Süleymanova**

**Gələn həftə öz işinə başlayacaq COP29 iqlim dəyişmələri ilə mübarizədə yeni yanaşmaların müzakirə ediləcəyi mühüm platforma olacaq. Tədbirdə həm Paris Sazişi çərçivəsində hədəflər yenilənəcək, həm də diqqət dağlıq və iqlimə həssas ərazilər üçün xüsusi layihələrin tətbiqinə yönəldiləcək.**

COP29 Azərbaycanla yanaşı, Qırğızıstanın dağlıq ərazilərinin iqlim dəyişmələrinə davamlı inkişafını prioritetə çevirir. Bu mövzuda Türk Dövlətləri Təşkilatı (TDT) üzvlərinin də dəstəyi planlaşdırılır. Bu, iqlim dəyişmələrinə qarşı qlobal və regional səyləri birləşdirərək dayanıqlı inkişafın təmin edilməsi üçün çoxşaxəli yanaşma mütləqdir. Qırğızıstan COP29 çərçivəsində xüsusi bir layihə olaraq dağlıq rayonların dayanıqlı inkişafı təşəbbüsünü təqdim edəcək. Qırğızıstanın xarici işlər naziri Ceenbek Kulubayev bu layihənin qlobal iqlim gündəliyində önəmli yer tutduğunu bildirib. Belə bir təşəbbüs iqlim dəyişmələrinin dağlıq ərazilərdəki təsirlərini azaltmaq üçün xüsusi olaraq hazırlanıb və beynəlxalq əməkdaşlıq üçün mühüm bir təklif kimi irəli sürülüb.

Azərbaycanın COP29-a sədrliyi bu tədbirdə qlobal liderlik rolunu gücləndirir. COP29-un fəaliyyət gündəliyindəki 14 təşəbbüsdən biri kimi təqdim edilən İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu (CFAF) qalıq yanacaq istehsalçılarından və sektordakı şirkətlərdən maliyyələşəcək. Məqsəd isəinkişaf etməkdə olan ölkələr və kiçik ada dövlətlərinə iqlim layihələri üçün investisiya dəstəyi yaratmaqdır. Ölkəmiz hesab edir ki, təbii sərvətlərlə zəngin ölkələr iqlim mübarizəsində lider olmalıdır və bu fond iqlim maliyyəsi boşluqlarını qapadacaq. Başlanğıc üçün 1 milyard dollar hədəflənib və 10 donor ölkənin dəstəyi gözlənilir.

Azərbaycanın COP29-a sədrliyi yalnız iqlim dəyişmələrinə qarşı mübarizə ilə məhdudlaşmır, eyni zamanda beynəlxalq arenada ədalətin bərpasını təmin etmək məqsədi daşıyır. Rəsmi Bakı üçün iqlim məsələləri təkcə ekoloji problem deyil, həm də suverenlik və ədalət mübarizəsinin tərkib hissəsidir. Ölkəmiz öz ərazi bütövlüyü və suveren hüquqlarını vurğulamaqla yanaşı, dayanıqlı inkişaf və iqlim tədbirlərində liderliyini gücləndirir.

COP29 çərçivəsində Azərbaycan iqlim dəyişmələrindən ən çox təsirlənən kiçik ada dövlətləri (SIDS) və digər həssas ölkələrin məsələlərinə xüsusi diqqət ayırır. Ölkənin təqdim etdiyi "İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu" (CFAF) təşəbbüsü iqlim fəaliyyətini qlobal səviyyədə maliyyələşdirmək, eyni zamanda inkişaf etməkdə olan ölkələrə dəstək olmaq məqsədini güdür. Azərbaycanın bu təşəbbüsü qlobal iqlim hərəkatına yalnız ekoloji çərçivədən deyil, həm də siyasi və sosial ədalət prinsiplərindən yanaşmasını nümayiş etdirir.

İqlim dəyişmələrinə uyğunlaşma və emissiyaların azaldılması sahəsində milli səylərin gücləndirilməsi tərəfdarı olan ölkəmiz COP29 çərçivəsində iqlim fəaliyyətində şəffaflıq, tərəfdaşlıq və inklüzivlik kimi prinsiplərin təbliği ilə beynəlxalq aləmdə daha genişmiqyaslı birgə əməkdaşlığa çağırır. COP29 vasitəsilə Azərbaycanın bu ambisiyalı yanaşmaları, iqlim məsələlərində liderlik mövqeyi və beynəlxalq əməkdaşlığı təşviq etməsi, regional və qlobal səviyyədə ekoloji problemlərə qarşı mübarizədə əhəmiyyətli rol oynayır. BakınınCOP29 tədbirinə ev sahibliyi müəyyən qüvvələrin hədəfindədir. Azərbaycana qarşı davamlı informasiya hücumlarında saxta profillər və kiberhücumlar istifadə olunur ki, bu da tədbirin əhəmiyyətinə kölgə salmağı hədəfləyir. Bu hücumlar əsasən, ermənipərəst şəbəkələrin təşəbbüsü ilə həyata keçirilir. Xüsusilə, Qərbdə fəaliyyət göstərən və erməni diasporunun təsiri altında olan qurumlar COP29-a olan qlobal diqqəti ölkəmiz əleyhinə yönəltməyə çalışırlar. Buna baxmayaraq, Azərbaycan hökuməti bu təxribatları effektiv şəkildə dəf etmək üçün addımlar atır və tədbirin müvəffəqiyyətli keçirilməsi üçün hazırlıqları davam etdirir.

Noyabrın 12-də keçiriləcək Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitində 50 prezident və 20-dən çox hökumət başçısının iştirakı gözlənilir. Sammitdə Türkiyə, Qazaxıstan, Səudiyyə Ərəbistanı və digər ölkə liderləri milli iqlim hədəflərinə və qlobal səylərə dəstək göstərəcəklər.